

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 87 (21.239)

*5 may 2015-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Yaponiya Baş nazirinin müavini, Maliyyə naziri Taro Asonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının növbəti illik toplantısının Bakıda keçirilməsinin əhəmiyyətindən danışıldı.

Söhbət zamanı Azərbaycan-Yaponiya ikitərəfli münasibətlərinin yüksək səviyyəsindən məmnunluq ifadə olundu, ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, informasiya-kommunikasiya texnologiyaları, turizm, humanitar və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Mayın 4-də Bakı Konqres Mərkəzində Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci illik toplantısının açılış sessiyası olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakao tədbirdə iştirak ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də İtaliyanın İqtisadiyyat və Maliyyə naziri Pier Karlo Padoanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının qurucusudur

### *Bu mövzuda tədbir keçirilib*

***YAP Ordubad Rayon Təşkilatında ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə tədbir keçirilib.***



YAP Ordubad Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev bildirib ki, Yeni Azərbaycan Partiyası haqqında danışarkən, ilk növbədə, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri xatırlanır. Müstəqillik qazandığımız ilk illərdə bu qiymətli sərvətin yenidən itirilməsi təhlükəsi yaranmışdı. Belə bir taleyüklü məqamda Azərbaycan milli azadlıq hərəkatının ağırlıq mərkəzi rolunu oynayan Naxçıvanda müstəqil dövlətin zəruri əsaslarının yaradılması prosesinə başlanılmışdı. Bu dövrdə Naxçıvanda gedən mütərəqqi proseslərin bilavasitə müəllifi olan ulu öndərimiz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı bir tərəfdən, bütövlükdə, xalqımızın yekdil arzusuna çevrilmişdisə, digər tərəfdən bu, tarixin çoxdan bəri diktə etdiyi qaçılmaz, qarşısıalınmaz obyektiv tarixi zərurət və alternativsiz sosial-siyasi çağırış idi. Məhz bu zərurəti və xalqın bütün təbəqələrinin arzusunu ifadə edən tanınmış ziyalılarından 91 nəfəri 1992-ci il oktyabr ayının 16-da ulu öndər Heydər Əliyevə Azərbaycanı fəlakətlərdən qurtaracaq yeni bir siyasi təşkilatın yaradılmasına və ona rəhbərlik etməsinə razılıq verməsi xahişi ilə "Azərbaycan Sizin sözünüzü gözləyir" adlı müraciət etdi.

1992-ci il noyabrın 21-də dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi, partiyanın yaradılması haqqında qərar qəbul edildi. Konfransda ulu öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yaradıldı.

Yeni Azərbaycan Partiyasının yaranması ilə Azərbaycanın dövlət müstəqilliyinin real həyatda bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi prosesinin əsası qoyuldu. 1993-cü il iyunun 15-də yenidən siyasi hakimiyyətə qayıdan və həmin il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilən Yeni Azərbaycan Partiyasının rəhbəri, ümummilli liderimiz Heydər Əliyev sosial-iqtisadi yüksəlişin və sabitliyin əsasını qoydu, Azərbaycanın dünya birliyindən təcrid edilməsinin qarşısını aldı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün sarsılmaz zəmin hazırladı.

Qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının tarixi, əslində, müstəqil Azərbaycan dövlətinin tarixini əks etdirir. Bu partiya ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt əsasında Azərbaycanın inkişafına kömək edən mütəşəkkil siyasi təşkilatdır.

Yeni Azərbaycan Partiyasının tarixi fəaliyyətinə, əldə olunan nailiyyətlərə nəzər salan Qürbət Rzayev qeyd edib ki, müstəqil Azərbaycan dövlətinin başının üstünü almış təhlükələrin ulu öndər Heydər Əliyevin rəhbərliyi altında aradan qaldırılmasında, xaos və özbaşınalığın birdəfəlik ləğv edilməsində, ictimai-siyasi sabitliyin bərqərar olunmasında, bazar iqtisadiyyatı əsasında neft strategiyasının işlənib hazırlanmasında və reallaşdırılmasında partiya fəallarının xüsusi xidmətləri olub. Həyata keçirilən uğurlu daxili və xarici siyasət, aparılan islahatlar ölkəmizi beynəlxalq təcriddən xilas edib və bu gün hamımızın qürur və iftixar hissi ilə qeyd etdiyi dinamik inkişaf yoluna çıxarıb.

Son illərdə YAP Sədri, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın dünyada bənzəri olmayan sürətli, dinamik inkişafını özündə ehtiva edən uğurların, qələbələrin əsası qoyulub. Bu gün buna hər kəs əmin ola bilər ki, YAP Azərbaycanda bundan sonra da Heydər Əliyev siyasətinin təmin edən güc mərkəzi rolunu və missiyasını şərəflə, ləyaqətlə həyata keçirəcəkdir.

Tədbirdə Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Elvin Məmmədov, təşkilatın Qadınlar Şurasının sədri Könül İsmayılova çıxış ediblər. Bildirilib ki, Yeni Azərbaycan Partiyasının məhz Naxçıvanda yaranması, partiyanın rəhbəri, ulu öndər Heydər Əliyevin xalqın çağırışı və təkidli tələbləri ilə Azərbaycanda siyasi hakimiyyətə buradan qayıdışı Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının təşəkkül tapıb formalaşmasında müstəsna rol oynayıb. Ümummilli liderimizin müəyyən etdiyi prinsiplərə əsaslanmaqla hər bir partiya üzvü muxtar respublikamızda aparılan dövlətçilik və quruculuq işlərində yaxından iştirak edir.

Sonda Ordubad şəhər 1 nömrəli tam orta məktəbin şagirdləri ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş şeirlərdən ibarət ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

## "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda lektoriya

***Mayın 4-də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda lektoriya keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Məcid Seyidov açaraq bildirib ki, Azərbaycanın müstəqil dövlətçilik tarixi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bütün mənalı ömrünü xalqımızın nicatına həsr etmiş bu dahi şəxsiyyət Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını yaradıb, ölkəmizin müstəqilliyinin qorunmasında və inkişaf etdirilməsində misilsiz xidmətlər göstərib.

"Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, ulu öndər Heydər Əliyevin prinsipiallığı, cəsarəti, milli ideyalara bağlılığı nəticəsində hələ sovet dövründə gələcəyin müstəqil Azərbaycanı naminə cəsarətli addımlar atılaraq Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit edilib, iqtisadiyyat, elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin inkişafında ciddi nailiyyətlər əldə olunub.



Qeyd edilib ki, ötən əsrin sonlarında Azərbaycan öz dövlət müstəqilliyini bərpa etsə də, bu müstəqilliyimiz xeyli çətinliklərlə qarşılaşıb. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib, milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarıb. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi və digər tarixi qərarlar müstəqillik yolunda irəliləyən Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin qətiyyəti və əzmkarlığı sayəsində ölkə parçalanmaqdan, vətəndaş müharibəsindən qurtulub. Onun dühasının qüdrəti sayəsində Azərbaycanda siyasi və milli-ideoloji birliyin təməli qoyulub, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrilib.

Vurğulanıb ki, dövlət quruculuğu sahəsində əldə olunmuş nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması və sair bu kimi uğurlar Heydər Əliyev dühasının bəhrələridir. Məhz dahi liderin fəaliyyəti nəticəsində Azərbaycan Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlayaraq dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. Ümummilli lider Heydər Əliyevin "Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!" fikri indi dünya dövlətləri sırasında günbəgün mövqeyini gücləndirən müstəqil Azərbaycanın simasında bir daha öz təsdiqini tapır.

Tədbirə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Məcid Seyidov yekun vurub.

## Heydər Əliyev Muzeyində növbəti açıq dərs

***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsi tələbələrinin iştirakı ilə "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda açıq dərs keçilib.***

Muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, "Azərbaycanın dövlət müstəqilliyi sarsılmaz və dönməz olacaqdır", – deyən ulu öndər Heydər Əliyev həyatını ölkəmizin müstəqilliyinə, xalqımızın rifahına həsr edib. Ulu öndər Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gəlişi ilə ölkədəki tənəzzül prosesinin qarşısını almış, inkişafa nail olmuşdusa, 1993-cü ildə müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən Azərbaycanı fəlakətlərdən xilas edərək onu demokratik, hüquqi və sürətlə inkişaf edən dünyəvi dövlətə çevirib. Vurğulanıb ki, dahi rəhbər Heydər Əliyev bütün həyatı boyu Vətəninin, xalqının gələcəyini düşünüb, Azərbaycanın müstəqilliyinin əbədiliyinə bütün varlığı ilə inanaraq bu dövlətin ideya əsaslarını, strateji inkişaf istiqamətlərini konkret olaraq müəyyənləşdirib.

Ramil Orucəliyev ulu öndər Heydər Əliyevin milli müstəqilliyin əldə olunmasında və qorunmasında, Azərbaycanın siyasi, iqtisadi, hərbi qüdrətə malik bir dövlət kimi inkişafında, Azərbaycançılıq ideologiyasının təbliğində əvəzsiz rolundan danışaraq Azərbaycan tarixində "Heydər Əliyev erası" kimi səciyyələndirilən inkişaf yolunun ayrı-ayrı mərhələləri haqqında açıq dərs iştirakçılarına məlumat verib. Qeyd olunub ki, dahi öndərin həyat və mübarizə yolu, millilik ideologiyası, Vətən sevgisi gələcək nəsillər üçün qiymətli mirasdır. Azərbaycanın ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan və dövlət müstəqilliyinin möhkəmlənməsinə xidmət edən siyasi və iqtisadi inkişaf konsepsiyası ulu öndərin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müstəqil daxili və xarici siyasət yeridən Azərbaycanın yalnız regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan ölkə kimi tanınması, ölkə başçısının həyata keçirdiyi çoxşaxəli siyasət, qazanılan bütün uğurlar əminliklə söyləməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi, ulu öndər Heydər Əliyevin təbirincə desək, dönməzdir, əbədidir, daimidir.

Sonra tələbələr ümummilli lider Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

**Xəbərlər şöbəsi**



Azərbaycanın özü qədər əbədi

# Heydər Əliyev təlimində sivilizasiyaların əlaqəsi məsələsi

*Ümummilli liderimiz Heydər Əliyevin möhtəşəm ömür yolu və çoxşaxəli, misilsiz fəaliyyəti Vətənə və xalqa fədakar xidmətin ideal nümunəsi olduğu kimi, nəzəri irsi də neçə-neçə nəsillərin yolunu işıqlandırmağa, yüz illərboyu dəyərini, məna və əhəmiyyətini saxlamağa qadir olan mükəmməl təlimdir. Başqa sözlə desək, dahi rəhbərin zəngin, dolğun nəzəri irsi ilə qlobal fəaliyyəti bir-birini üzvi şəkildə tamamlayır.*

Ulu öndərin fəaliyyətində ədəbiyyat, incəsənət məsələləri, Şərq və Qərb sivilizasiyalarının mənşəyi, mahiyyəti, qarşılıqlı əlaqələri, gələcək perspektivləri, müqayisəli dəyərləndirilməsi də özünəməxsus yer tutur. ***"Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir"***, – deyən ümummilli liderimiz məruzə, çıxış və nitqlərində də bu məsələyə lazımınca nəzər yetirmiş, qiymətli fikirlər söyləmişdir.

Azərbaycana rəhbərlik etdiyi dövrdə dahi rəhbər Heydər Əliyev ədəbiyyat, incəsənət məsələləri ilə daim məşğul olmuş, klassik sənətkarların yubileylərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsi, əsərlərinin təbliği, tədqiqi, dünya miqyasında tanıtdırılması istiqamətində son dərəcə böyük işlər görmüş, nəhəng tədbirlər həyata keçirmişdir. Bütün bunlar çağdaş nəsillərin klassik ədəbi-mədəni irsə ehtiram ruhunda tərbiyəsində, onlara dərin vətənpərvərlik hisslərinin aşılanmasında mühüm əhəmiyyətə malik olmaqla yanaşı, xalqımızın bəşər sivilizasiyasının inkişafına verdiyi töhfələrin lazımınca təqdim olunması və qiymətləndirilməsinə də müvafiq şərait yaratmışdır.

Xalqımızın qədim və zəngin mədəniyyətə malik olduğunu, bu cəhətdən dünyanın ən inkişaf etmiş xalqları ilə bir sırada dayandığını vurğulayan ulu öndər Heydər Əliyev mədəni irsimizi dünya sivilizasiyası fonunda qiymətləndirərək demişdir: ***"Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır... Bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər".***

Klassik ədəbi-mədəni irsə diqqət və qayğı ilə yanaşmağı, ən yaxşı ənənələrdən layiqincə öyrənməyi vacib sayan müdrik rəhbərin aşağıdakı fikirləri bu cəhətdən xüsusi əhəmiyyətə malik olmaqla, irs və varislik əlaqəsinin əsl mahiyyətini də aydın şəkildə nəzərə çatdırır: ***"Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, həqiqi vətəndaşlıq hissini, Azərbaycançılıq hissini yüksəldərik".***

Ümummilli liderimizin fəaliyyətində bir mühüm cəhət də diqqəti cəlb edir. Ulu öndər Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı əlaqəsindən danışarkən Şərq, o cümlədən Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bəşər sivilizasiyasında tutduğu böyük mövqeni, Qərbə göstərdiyi ciddi təsiri də ayrıca qiymətləndirmişdir: ***"Azərbaycan xalqının XII əsrdə intibah dövrünü keçirən ədəbiyyatı Xaqaninin və Nizaminin timsalında, sonrakı əsrlərdə isə Nəsiminin, Füzulinin, Vaqifin, M.F.Axundovun, Sabirin timsalında dünya şöhrəti qazanmış, Yaxın Şərq və Qərb ölkələrində ədəbi prosesin, estetik fikrin inkişafına nəcib təsir göstərmiş, məsələn, Avropa ədəbiyyatını yeni ideyalar, mövzular və süjetlərlə zənginləşdirmişdir. Ulu söz ustaları bizə böyük estetik sərvətlər xəzinəsi, humanizm və xalqlar dostluğu kimi nəcib ideyaların çox zəngin bir aləmini qoyub getmişlər".***

Dahi rəhbərin bu sözləri böyük bir həqiqəti ifadə edir. İstər orta əsrlərdə, istərsə də sonrakı dövrlərdə yazıb-yaratmış bir çox Şərq və Qərb klassiklərinin əsərlərində Nizami, Füzuli kimi ustadların nəcib təsirini göstərən çoxsaylı faktlar, nümunələr bəllidir. Təkcə bir faktı xatırladaq ki, böyük ingilis ədibi V.Şekspirin yaradıcılığına Nizami sənətinin təsirini Avropa alimləri də etiraf etmişlər.

Xalqımızın böyük oğlu Heydər Əliyev sivilizasiyaların əlaqəsinə birtərəfli proses kimi baxmamış, Şərq, o cümlədən Azərbaycan ədəbiyyatı və mədəniyyətinin Qərbə böyük təsir göstərdiyini faktlar əsasında qiymətləndirməklə yanaşı, öz növbəsində, Şərqdə Qərb sivilizasiyası ənənələrindən istifadəyə də yer verildiyini nəzərə çatdırmışdır. ***"Keçmişdə də böyük, dahi şairlərimiz, yazıçılarımız, tarixçilərimiz qədim yunan, Roma ədəbiyyatından istifadə etmişlər"***, – deyən, sivilizasiyaların qarşılıqlı əlaqəsini mədəniyyətlərin zənginləşməsində mühüm vasitə sayan ulu öndər Heydər Əliyevin aşağıdakı fikri də analitik təhlildən, dərin düşüncədən yoğrulmuşdur: ***"Eyni zamanda Qərb də Şərqin və xüsusən türkdilli xalqların, müsəlman Şərqinin yaratdığı böyük, tarixi əsərlərdən istifadə etmişdir. Şərqin və Qərbin mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin sintezi həm Qərbə, həm də Şərqə çox böyük müsbət nəticələr gətirmişdir".***

***"Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur"***, – deyən ümummilli liderimiz ölkəmizin coğrafi mövqeyinin də sivilizasiyaların əlaqəsi baxımından əlverişli olduğunu ayrıca vurğulamışdır. Dahi rəhbər qeyd edirdi ki, Azərbaycan coğrafi-siyasi mövqeyinə görə həmişə sivilizasiyaların qovuşuğunda olmuş və mədəniyyətimiz də bu aspektdə inkişaf edərək böyük uğurlar qazanmışdır.

XIX əsrdən etibarən Şərq və Qərb mədəni əlaqələrinin yeni mərhələyə qədəm qoyduğunu, sivilizasiya əlaqələrinin yeni mahiyyət kəsb etdiyini, Azərbaycan mədəniyyətinin Qərbə inteqrasiyasını ümummilli liderimiz belə mənalandırmışdır: ***"Azərbaycan Asiya ilə Avropanın birləşdiyi, qovuşduğu bir ərazidə yerləşən, amma Avropaya daxil olan bir ölkədir. Ancaq Azərbaycan öz kökünə, dini mənsubiyyətinə, ənənələrinə görə Şərq aləminə, İslam, Türk dünyasına daxil olubdur. Bu qəbildən olan xalqlar, millətlər içərisində Azərbaycan xalqı XIX-XX əsrlərdə öz milli köklərindən ayrılmayaraq öz ədəbiyyatını, mədəniyyətini dünyanın inkişaf etmiş Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirə bilibdir. Bizim milli ədəbiyyatımızı, mədəniyyətimizi Qərb mədəniyyəti, ədəbiyyatı ilə birləşdirən, onun sintezini yaradan insanlar çox uzaqgörən, müdrik insanlar olublar".***

Göründüyü kimi, ümummilli liderimiz Qərb sivilizasiyasının qabaqcıl ənənələrini mənimsəmək, ondan yaradıcılıqla istifadə etmək barədə dəyərli fikirlər söyləmiş, bu sintez prosesində milli köklərdən ayrılmamağı vacib şərt saymışdır. Yəni istənilən bir kənar təsir, ədəbi-mədəni yenilik nə qədər faydalı və zəruri olsa da, onun mənimsənilməsi milli köklərdən ayrılmaq hesabına baş verməməlidir. Ulu öndərimiz Heydər Əliyev xalqımızın böyük övladlarının, tanınmış ədəbiyyat və mədəniyyət xadimlərinin bir mühüm xidmətini də onda görürdü ki, onlar ***"Azərbaycan dilini, Azərbaycan milliliyini yaşadıb, milli şüurunu, milli məfkurəsini daim yaşatmışlar".***

Həm orta əsrlərdə, həm də son yüzilliklərdə yaradılmış ciddi ədəbi-mədəni nümunələrin Qərblə müqayisədə geri qalmadığı, bir çox məqamlarda üstün olduğu barədə ulu öndər Heydər Əliyevin fikirləri dərin məntiqə və təhlilə əsaslanır. Səciyyəvi bir faktı xatırlayaq. Dahi rəhbər ustad romantik şair Hüseyn Cavidin təkrarsız sənətindən danışarkən bu istedadlı sənətkarın ədəbi irsini Şərq-Qərb kontekstində qiymətləndirməyin mükəmməl nümunəsini vermiş, onun Avropa klassikləri ilə müqayisəsini konkretləşdirmiş, çox dəqiqliklə qeyd etmişdir ki, ***"Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu bəlkə də Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə... Cavidin "İblis" əsəri heç də Hötenin "Faust"undan geri qalmır. Ancaq biz belə inciləri lazımi qədər qiymətləndirə bilmirik".***

Çox qiymətli fikirdir. Doğrudan da, yaradıcılıq qayəsinə, ruhuna görə Cavid Höte ilə daha yaxındır. Digər tərəfdən, biz öz böyük sənətkarlarımızı layiq olduqları səviyyədə dünyaya tanıtdıra bilsək, xalqımızın, mədəniyyətimizin möhtəşəmliyi də o qədər geniş tanınar. Dərin minnətdarlıqla qeyd edirik ki, bu sahədə ulu öndər Heydər Əliyevin gördüyü misilsiz işlər neçə-neçə yüzilliklərə və neçə-neçə ömrə sığmayan monumental, qlobal tədbirlərdir.

Görkəmli dövlət xadimi Heydər Əliyev Şərq və Qərb sivilizasiyalarını dəyərləndirərkən mədəniyyətlərin birləşdirici funksiyasına, qarşılıqlı əlaqələrə ciddi rəvac verməsinə də xüsusi diqqət yetirərək demişdir: ***"Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsində mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür".***

Göründüyü kimi, ümummilli liderimizin misilsiz fəaliyyətində milli ədəbi-mədəni irs və dünya ənənələri, Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı əlaqələri, zənginləşmə yolları və sintezinin nisbət səviyyəsi, Azərbaycan mədəniyyətinin Şərq-Qərb kontekstində dəyərləndirilməsi barədə qiymətli müddəalar vardır. Bütün bunların hamısının fövqündə isə o dayanır ki, dahi rəhbər milli-mənəvi dəyərləri, Vətən və xalq qarşısında məsuliyyəti, onun rifahı, səadəti naminə çalışmağı hər şeydən üstün tutmuş, bəşər sivilizasiyasına inteqrasiya prosesində də bu vacib amalı mühüm vəzifə saymış, tövsiyə etmişdir ki, ***"Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".***

Bu gün ölkəmizdə ümummilli lider Heydər Əliyevin siyasi kursu bütün istiqamətlərdə uğurla davam etdirilir, o cümlədən ədəbi-mədəni inkişafın daha da yüksəlişinin təmin olunması üçün sistemli, hərtərəfli tədbirlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik və məqsədyönlü fəaliyyəti cəmiyyət həyatının digər sahələrində olduğu kimi, ədəbiyyat, incəsənət və mədəniyyətə münasibətdə də özünün parlaq nəticələrini aşkar şəkildə göstərir. Sivilizasiyaların dialoqu, qarşılıqlı əlaqəsi də diqqət mərkəzindədir. Respublikamızda multikulturalizmin dövlət siyasəti səviyyəsində həyata keçirilməsi də bu baxımdan mühüm fakt olub ulu öndərin parlaq ideyaları işığında gerçəkləşmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bütün digər sahələrlə yanaşı, həmin istiqamətdə də mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun möhtəşəm, konseptual fəaliyyəti sayəsində qədim Naxçıvan son iyirmi il ərzində neçə-neçə qərinəyə sığmayan hərtərəfli inkişaf yolu keçərək əsl intibaha qovuşmuş, o cümlədən mədəniyyətin yeni, əsaslı yüksəlişinə nail olmuşdur. Bu gün Naxçıvan Şərq və Qərb sivilizasiyalarının üzvi sintezini, klassika ilə müasirliyin uğurlu vəhdətini özündə ən mükəmməl şəkildə təcəssüm etdirir.

**Hüseyn HƏŞİMLİ**
*filologiya üzrə elmlər doktoru,*
*Əməkdar elm xadimi*

## "1941-1945-ci illər müharibəsində qələbənin əldə edilməsində Azərbaycan xalqının rolu" adlı elmi konfrans

***Mayın 4-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində 1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyi münasibətilə AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinin təşkilatçılığı ilə "1941-1945-ci illər müharibəsində qələbənin əldə edilməsində Azərbaycan xalqının rolu" adlı elmi konfrans keçirilib.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq olunan "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı"na uyğun olaraq keçirilən konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. 1941-1945-ci illər müharibəsində iştirak edən azərbaycanlıların müharibənin taleyini dəyişmək baxımından rolundan danışan İsmayıl Hacıyev bildirib ki, XX əsrin ən dəhşətli faciələrindən olan 1941-1945-ci illər müharibəsi günlərində azərbaycanlı oğul və qızlarımız Neva və Volqa sahillərindəki döyüşlərdə, Stalinqradın, Leninqradın azad edilməsində iştirak ediblər.

Konfransda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Bəşəriyyət tarixində ən qanlı müharibə", "Naxçıvan" Universitetinin prorektoru Əli Yusifovun "İkinci Dünya müharibəsinin səbəbləri və nəticələri", Naxçıvan Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru Abdulla Mustafayevin "Azərbaycanlılar 1941-1945-ci illər müharibəsində", Naxçıvan Müəllimlər İnstitutunun dosenti, tarix üzrə fəlsəfə doktoru Ələkbər Cabbarovun "Azərbaycanlıların arxa cəbhədəki fəaliyyətləri", bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun "Naxçıvanlıların 1941-1945-ci illər müharibəsində iştirakı" mövzularında məruzələri dinlənilib.

Məruzələrdə bildirilib ki, arxiv sənədlərində o zaman Naxçıvanda yaşayan əhalinin hər 4 nəfərindən birinin, yəni 126 min nəfərin 30 min nəfərdən çoxunun müharibəyə yollandığı göstərilir. Gedənlərin yarısından çoxu geri qayıtmayıb. Naxçıvandan 3 döyüşçü – Nəcəfqulu Rəfiyev, Abbas Quliyev və Qəzənfər Əkbərov "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb, Akim Abbasov isə müharibədən general rütbəsi ilə Vətənə qayıdıb. Ümumiyyətlə, 8 nəfər Lenin ordeni, Rəhim Rəhimov "Şöhrət" ordeninin hər üç dərəcəsi, 102 nəfər "Şöhrət" ordeninin ayrı-ayrı dərəcələri, 105 nəfər birinci və ikinci dərəcəli "Böyük Vətən müharibəsi", 315 nəfər "Qırmızı Ulduz", 42 nəfər "Qırmızı Bayraq" ordenləri ilə təltif olunub.

Elmi konfransı AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

**Xəbərlər şöbəsi**

5 may Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günüdür

# Əlillərin hüquqlarının qorunması diqqət mərkəzindədir



***Beynəlxalq ictimaiyyətin diqqətini əlillərin hüquqlarının qorunmasına cəlb etmək, onların cəmiyyətə inteqrasiyasını gücləndirmək məqsədilə Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qərarı ilə 1992-ci ildən etibarən mayın 5-i dünyada “Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günü” kimi qeyd olunur.***

Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə əlillərin hüquqlarının müdafiəsi daim diqqət mərkəzində olub və bu sahədə zəngin qanunvericilik bazası yaradılıb. Ulu öndərin rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikası Konstitusiyasında insan hüquq və azadlıqlarının təminatı, o cümlədən xəstəliyə, əlilliyə, işsizliyə, ailə başçısını və əmək qabiliyyətini itirməyə və qanunla nəzərdə tutulan digər hallara görə bu kateqoriyalardan olan insanların sosial təminat hüququna malik olduğu təsbit edilib. 1998-ci il 18 iyun tarixdə “İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı”nın təsdiq edilməsi ölkəmizdə insan hüquqlarının qorunmasına göstərilən diqqətin ifadəsi olub, əlillərin hüquqlarının müdafiəsində mühüm əhəmiyyət kəsb etməkdədir.

Ölkəmizdə əlil insanlara dövlət qayğısı ilbəil artır. Sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsinə yeni hüquqi imkanlar yaradan qanunvericilik aktlarının qəbul edilməsi ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. 2006-cı il 28 dekabr tarixdə “Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı”nın, 2011-ci il 27 dekabr tarixdə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın təsdiq edilməsi və bu proqramlarda əlillərin hüquq və azadlıqlarının təmin edilməsi üzrə fəaliyyət istiqamətlərinin müəyyən olunması onlara göstərilən davamlı qayğının ifadəsidir.

Əlillərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı bir sıra normativ-hüquqi aktlar qəbul edilib. Müvafiq kateqoriyadan olan məhdud fiziki imkanlı şəxslərə hər ay təqaüd və müavinətlər ödənilir.

“Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu əlilliyi və uşaqların sağlamlıq imkanlarının məhdudluğunu doğuran səbəblərin aradan qaldırılmasına, onların reabilitasiyalarına, cəmiyyətə inteqrasiyalarına hüquqi təminat yaradır. Həmin qanunla əlillərin əməklə, habelə sahibkarlıq fəaliyyətilə məşğul olmaq, eyni zamanda əmək münasibətlərində güzəşt və imtiyazlar hüquqları təmin olunub.

Muxtar respublikamızın dinamik iqtisadi inkişafı və tərəqqisi əlillərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının qorunmasına, onlara göstərilən müxtəlif növ sosial xidmətin səviyyəsinin yüksəldilməsinə, sosial sahənin maddi-texniki bazasının güclənməsinə əsaslı zəmin yaradır.

Müvafiq kateqoriyadan olan məhdud fiziki imkanlı şəxslərin mənzil və fərdi yaşayış evi ilə, müxtəlif texniki-bərpa vasitələri və protez-ortopedik məmulatlarla təmin edilməsi, tənha yaşayan sağlamlıq imkanları məhdud şəxslərə evdə sosial məişət xidmətinin göstərilməsi, istedadlı əlillərin maddi və mənəvi cəhətdən dəstəklənmələri, habelə onların fərdi məşğulluqlarının və asudə vaxtlarının səmərəli təşkili bu kateqoriyadan olan şəxslərin həyat səviyyələrini yüksəldir.

Hazırda sağlamlıq imkanları məhdud vətəndaşların sosial müdafiələrini gücləndirmək məqsədilə müvafiq kateqoriyadan olan 6518 əlil, o cümlədən 1839 sağlamlıq imkanları məhdud uşaq sosial müavinət, 240 şəhid ailəsi, 888 müharibə əlili və iştirakçısı, habelə I qrup ümumi səbəbdən 684 əlil Prezident təqaüdü alır.

Son 20 il ərzində sağlamlıq imkanları məhdud şəxslərin tibbi reabilitasiyası məqsədilə Naxçıvan Əlillərin Bərpa Mərkəzində 2400 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində 1590 uşağın müalicəsi təmin edilib, eyni zamanda onurğa və sinir xəstəliyi olan 197 nəfər xarici ölkələrə müalicəyə göndərilib. Bu müddət ərzində sağlamlıq imkanları məhdud 4410 nəfərə müxtəlif texniki reabilitasiya vasitələri verilib, 2560 nəfərə protez-ortopedik xidmət göstərilib, respublikamızın müxtəlif sanatoriya və pansionatlarında müalicə və istirahətləri məqsədilə 2050 nəfər göndərişlərlə təmin edilib.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı, Çernobıl Atom Elektrik Stansiyasında baş verən qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak edərək sağlamlıq imkanları məhdudlaşan, 1941-1945-ci illər müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərdən, ümumilikdə, 438 nəfər minik avtomobili ilə, 191 əlil və şəhid ailəsi mənzil və fərdi yaşayış evi ilə təmin olunub.

Məhdud fiziki imkanlı şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlara göstərilən sosial



reabilitasiya xidmətinin keyfiyyətini yüksəltmək məqsədilə bir sıra tədbirlər görülüb. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində defektoloji bölmə, kinekt və əmək terapiyası otaqları, Naxçıvan Uşaq Bərpa Mərkəzində multisensorlu terapiya otağı yaradılıb. Naxçıvan Regional İnformasiya Mərkəzində görmə və eşitmə məhdudiyyəti olan şəxslər üçün brayl və daktilo əlifbasının tədrisi üzrə kurslar təşkil olunur, onlara audio və elektron kitabxana xidməti göstərilir, hər ay “Könül işığı” adlı brayl jurnalının nəşri təşkil edilir. Eyni zamanda sosial xidmət göstərilən tənha sağlamlıq imkanları məhdud şəxslərə mütəmadi olaraq evlərində baş çəkilir, onların zəruri sosial problemlərinin həlli və tibbi müayinədən keçmələri təmin olunur, habelə uşaq serebral iflici, autizm, daun sindromlu və periferik sinir sistemi xəstəlikləri olan uşaqların valideynləri ilə maarifləndirici görüşlər keçirilir.

Sağlamlıq imkanları məhdud şəxslərin istedad və qabiliyyətlərini inkişaf etdirmək məqsədilə bədii yaradıcılıq müsabiqələri, rəsm və əl işlərindən ibarət sərgilər, paralimpiyaçıların iştirakı ilə idmanın müxtəlif növləri üzrə yarışlar təşkil olunur, onların asudə vaxtlarını, o cümlədən istirahətlərini mənalı keçirmələri istiqamətində tədbirlər görülür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası bu kateqoriyadan olan uşaqların müasir tələblər səviyyəsində təhsil almalarına, cəmiyyətə daha fəal inteqrasiyalarına səbəb olur. Bu kateqoriyadan olan uşaqların təhsilə cəlbi istiqamətində görülən tədbirlərin səmərəliliyini yüksəltmək məqsədilə məktəbəqədər və məktəbyaşlı sağlamlıq imkanları məhdud uşaqlarla bağlı məlumat bazası yaradılıb. Hazırda ümumtəhsil məktəblərində 794 sağlamlıq imkanları məhdud uşaq, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilməyən uşaqlar üçün istifadəyə verilən Distant Tədris Mərkəzində isə bu kateqoriyadan olan 19 uşaq təhsil alır.

Dövlət proqramının icrası ilə bağlı olaraq, ötən il sağlamlıq imkanları məhdud 43 uşaq məktəbəqədər təhsil müəssisələrinə, bu kateqoriyadan olan 190 uşaq isə bacarıq və maraqları nəzərə alınaraq məktəbdənkənar müəssisələrə, o cümlədən şahmat və musiqi məktəblərinə, müxtəlif idman qruplarına, həmçinin müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərin artırılması məqsədilə məşğələlərə cəlb ediliblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası məhdud fiziki imkanlı şəxslərin də əmək bazarına inteqrasiyasına, onların sosial rifahının yüksəlməsinə imkanlar yaradır. Belə ki, 2014-cü il ərzində bu kateqoriyadan olan 216 nəfərin məşğulluğu üzrə, o cümlədən onların peşə kurslarına və sosial əhəmiyyətli ictimai işlərə cəlb edilmələri, müəssisələrdə müəyyən edilən kvota yerlərinə işə göndərilmələri istiqamətində tədbirlər həyata keçirilib.

*Muxtar respublikada həyata keçirilən davamlı sosial-iqtisadi islahatlar məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin güclənməsinə, onların həyat səviyyəsinin yüksəlməsinə, ümumilikdə, bu kateqoriyadan olan şəxslərə göstərilən dövlət qayğısının artmasına imkan verir.*

**Naxçıvan Muxtar Respublikası**
**Əmək və Əhalinin Sosial Müdafiəsi**
**Nazirliyinin mətbuat xidməti**

*Yeni təhsil islahatının həyata keçirilməsində qarşıya çıxan problemlərin uğurla həlli məqsədilə Naxçıvan Müəllimlər İnstitutu Təhsil Nazirliyi ilə birlikdə muxtar respublikanın ümumtəhsil məktəblərində müxtəlifməzmunlu silsilə tədbirlərin keçirilməsini davam etdirir.*

## Şəxsiyyətyönümlü kurikulumlara dair elmi-praktik konfrans

Növbəti belə tədbir Şərur rayon Çərçiboğan kənd tam orta məktəbində “Ümumtəhsil məktəblərində şəxsiyyətyönümlü kurikulumların tətbiqi yolları” mövzusunda keçirilib.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Rafiq Abbasov son illər rayonda keçirilən belə tədbirlərin əhəmiyyətindən, yeni təhsil islahatının qarşıya qoyduğu vəzifələrin həllində Müəllimlər İnstitutunun köməyindən danışıb.

Məktəb direktorunun sözlərinə görə, ötən illər ərzində yeni tələblərin tətbiqi işdə ciddi dönüşün yaranmasına, müəllim-şagird münasibətlərinin yeni təməllər üzərində qurulmasına zəmin yaradıb. Bugünkü tədbir də pedaqoji işin səmərəli təşkilinə öz töhfəsini verəcəkdir.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli çıxış edərək bildirib ki, bu gün yetişməkdə olan nəslin inkişafını, tərbiyəsini düzgün təşkil etmək, sürətlə artan elmi-texniki yeniliklərin əsaslarını onlara mənimsətmək üçün uşaqların dərketmə imkanlarını, idrak proseslərinin inkişaf qanunauyğunluqlarını və bu prosesin necə aşılanması və tərbiyə edilməsini bilmək zəruridir. Bu gün hər bir müəllimə və məktəb rəhbərinə məlumdur ki, yeni təhsil islahatının həyata keçirilməsində müəllimlərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Əsl vətəndaş tərbiyə etmək, cəmiyyətimizin gələcək qurucularını düzgün formalaşdırmaq üçün qarşıya qoyulan vəzifələrin həllinə, xüsusən şəxsiyyətyönümlü istiqamətə daha çox önəm vermək günümüzün vacib məsələlərindəndir. Biz də Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşları olaraq məktəblərimizə və müəllimlərimizə hərtərəfli kömək göstərməyə çalışırıq.

Sonra Çərçiboğan kənd tam orta məktəbinin müəllimi Həsən Nəbiyev çıxış edərək şəxsiyyətyönümlü kurikulumların tətbiqi təcrübəsindən bəhs edib, bu işdə öz pedaqoji təcrübəsindən danışıb.

Naxçıvan Müəllimlər İnstitutunun dosentləri Kamal Camalovun, Həsənəli Eyvazlının və Naxçıvan Dövlət Universitetinin dosenti, Çərçiboğan məktəbinin məzunu olmuş Qurban Qurbanovun çıxışları olub.

Sonra konfrans iştirakçıları ilə mövzuya dair müzakirələr aparılıb.

**Naxçıvan Müəllimlər İnstitutunun**
**mətbuat xidməti**

# Aprel ayında tibbi xidmətin əhatə dairəsi genişləndirilib

***Səhiyyə sistemində tibbi xidmətin əhatə dairəsinin genişləndirilməsi, əhalinin hər bir təbəqəsinin keyfiyyətli tibbi xidmətlə əhatə olunması aprel ayında diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmişdir.***

Aprel ayında aparılan genişmiqyaslı quruculuq işləri səhiyyə sahəsini də əhatə etmiş, Şərur rayonunun Cəlilkənd yaşayış məntəqəsində həkim ambulatoriyası, Şahbuz rayonunun Gömür kəndində feldşer-mama məntəqəsi əhalinin istifadəsinə verilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən idarəolunan yoluxucu xəstəliklərin immunoprofilaktikası məqsədilə peyvənd materialları, hepatit əleyhinə vaksinlər, öz-özünü məhv edən şpris və işlənmiş materialları yığmaq üçün konteyner gətirilmişdir.

Ötən ay Doğum Mərkəzində Azərbaycan Tibb Universiteti və Azərbaycan Pediatrlar Assosiasiyası ilə birgə “Pediatriyanın aktual problemləri” mövzusunda konfrans, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında “Stomatoloji innovasiyalar” mövzusunda elmi-praktik konfrans keçirilmişdir.

Ölkəmizin paytaxtında fəaliyyət göstərən yüksəkixtisaslı həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi və aztəminatlı ailələrdən olan xəstələrin başqa ünvanlara üz tutmadan müayinəsinin və cərrahi əməliyyatlarının təşkili davam etdirilmiş, Mərkəzi Neftçilər Xəstəxanası Ürək və damar xəstəlikləri şöbəsinin həyəti Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsi ilə birgə 10 nəfərdə açıq ürək əməliyyatı, 11 nəfərdə müayinələr aparmışdır.

Azərbaycan Milli Oftalmologiya Mərkəzinin oftalmoloqu tərəfindən isə Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasında 24 nəfərdə müayinə, 18 nəfərdə əməliyyat yerinə yetirilmişdir.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Ordubad rayon təhsil müəssisələrinin 278 qadın işçisinin süd vəzində profilaktik müayinə aparılmış, 14 nəfərdə patologiya aşkar olunaraq onlar Onkoloji Mərkəzə dəvət edilmişlər.

Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində şagirdlərin kütləvi müayinəsi aparılmışdır. Aprel ayında 18 min 666 nəfərdə müayinə aparılmış, 2 min 844 nəfər dispanser qeydiyyatına alınmışdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin 20 nəfərdən ibarət tibb heyəti Culfa Rayon Mərkəzi Xəstəxanasında olmuş, 27 nəfərdə müxtəlif cərrahi əməliyyat aparılmış, tibb işçilərinə laborator-diaqnostik aparatların istifadə qaydaları haqda məlumatlar verilmişdir.

17 aprel – Ümumdünya Hemofiliya Günü Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində qanvermə aksiyası ilə qeyd olunmuş, Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsinin əməkdaşları könüllü qanvermə aksiyasında iştirak etmişlər.

Rayon və kənd tibb müəssisələrinin fəaliyyətinə nəzarət məqsədilə aprel ayında Kəngərli Rayon Mərkəzi Xəstəxanasında, Qarabağlar və Şahtaxtı kənd həkim ambulatoriyalarında, Şərur Rayon Mərkəzi Xəstəxanasında, Cəlilkənd və Dəmirçi kənd həkim ambulatoriyalarında, Babək Rayon Mərkəzi Xəstəxanasında, Nehrəm kənd sahə xəstəxanasında, Güznüt və Çeşməbasar kənd həkim ambulatoriyalarında, Sədərək Rayon Mərkəzi Xəstəxanasında mövcud çatışmazlıqların həll olunması üçün yerindəcə tapşırıqlar verilmişdir.

Ahıl və əlillərə göstərilən tibbi xidməti yaxşılaşdırmaq məqsədilə aprel ayı ərzində muxtar respublika üzrə 15 nəfər Bakı şəhərindəki Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 50 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 20 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Səhiyyə Nazirliyinin**
**mətbuat xidməti**

# Sağlamlıq imkanları məhdud uşaqlar arasında Naxçıvan Muxtar Respublika birinciliyi





*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Paralimpiya Federasiyasının təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş sağlamlıq imkanları məhdud uşaqlar arasında Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.*

İdmanın stolüstü tennis, şahmat, dama və darts növləri üzrə keçirilən idman tədbirində sağlamlıq imkanları məhdud 89 uşaq iştirak edib. Yarışlar Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksi və Babək Rayon Şahmat məktəbində baş tutub.

İlham Əliyev adına Olimpiya-İdman Kompleksində təşkil olunan stolüstü tennis və darts idman tədbirində Paralimpiya Federasiyasının sədri Cavid Səfərov çıxış edərək bildirib ki, muxtar respublikada fiziki imkanları məhdud uşaqların idmana cəlb olunmaları üçün mütəmadi olaraq işlər görülür. Bunun nəticəsidir ki, bu gün keçirilən tədbirdə muxtar respublikanın şəhər və rayonlarından 100-ə yaxın fiziki imkanları məhdud olan uşaq iştirak edir. Yarışların keçirilməsində məqsəd bu kateqoriyadan olan istedadlı, perspektivli uşaqları üzə çıxarmaq və onların daim idmanla məşğul olmalarını təmin etməkdir.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxışında qeyd edib ki, bu gün gənclərin yüksək səviyyədə təhsil almaları, intellektual səviyyələrinin yüksəldilməsi, dünyagörüşlərinin artırılması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə muxtar respublikada gənclik mərkəzləri, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, yeni tam orta məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri tikilərək və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilib. Bununla yanaşı, fiziki imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiya olunmaları üçün də müəyyən addımlar atılıb. Bu gün muxtar respublikada bu kateqoriyadan olan uşaqlar daim diqqət mərkəzindədirlər. Bu tipli yarışların keçirilməsində əsas məqsəd sağlamlıq imkanları məhdud uşaqların idmana olan maraqlarını artırmaqla onlar arasında idmanın kütləviliyinə nail olmaqdır.

Sonra yarışlarda ilk üç yeri tutan idmançılara hədiyyələr təqdim olunub. Digər yarış iştirakçılarına isə həvəsləndirici mükafatlar verilib.

# Beynəlxalq şahmat festivalı davam edir

## *Dünən festivalın 3-cü turu başa çatıb*



***"Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının 3-cü turu geridə qalıb.***

"A" qrupunda bu tur daha çox liderlərin qarşılaşması ilə yadda qalıb. Belə ki, ilk iki turda qələbə qazanan azərbaycanlı qrossmeyster Ülvi Bacarani rusiyalı Yevgeni Romanovla üz-üzə gəlib və beynəlxalq turnirdə ardıcıl üçüncü qələbəsini qazanıb. Turnir cədvəlinin digər liderlərindən olan gürcüstanlı qrossmeyster Levan Pantsulaya türkiyəli beynəlxalq usta Sanal Vahapı sınağa çəkib. Gürcüstanlı şahmatçı qalib gələrək maksimum xal toplayıb.

Turnirə qələbə ilə başlayan, lakin ikinci turda məğlubiyyətlə üzləşən Naxçıvanın zəka sahiblərindən FİDE ustası Pərviz Qasımov bu turda azərbaycanlı FİDE ustası Abdulla Qədimbəyli ilə qarşılaşıb. Ağ-qara taxtadan qələbə ilə ayrılan Pərviz xal ehtiyatını ikiyə yüksəldib. Digər həmyerlimiz FİDE ustası Ürfan Sevdimalıyev isə Hindistan şahmatçısı, qrossmeyster Gupta Abhijeetin müqavimətini qıra bilməyib.

Qadınlar arasında dünya çempionu, Çin təmsilçisi Hou Yifan bu turda azərbaycanlı beynəlxalq usta Zaur Məmmədovla qarşılaşıb. Maraqlı keçən qarşılaşmadan azərbaycanlı şahmatçı qalib kimi ayrılıb. Zaur kimi Rauf Məmmədov da bu turu qələbə ilə başa vurub. Qrossmeysterimiz gürcüstanlı beynəlxalq usta Nino Xurtsidzeni məğlub edib.

Hazırda "A" turnirində ikihakimiyyətlilik hökm sürür. Gürcüstanlı Levan Pantsulaya ilə azərbaycanlı Ülvi Bacarani beynəlxalq şahmat festivalının liderləridir.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının "B" turnirində maraqlı görüşlər keçirilib. Belə ki, turnirin liderləri bu turda üz-üzə gəliblər. Nəticəyə əsasən, azərbaycanlı zəka sahibi Rəşad Zeynallı 3 turdan sonra maksimum nəticə ilə liderdir. Onun kimi iranlı şahmatçılar Babək Sedgi, Behranq Kabudi, azərbaycanlı şahmatçılar Vəli Zeynalzadə və Aysel Məmmədova da eyni xal toplayıblar.

Beynəlxalq şahmat festivalının "C" turnirində isə 11 şahmatçı maksimum (3 oyun, 3 xal) nəticə ilə liderdir. Onlar arasında Naxçıvan şahmat məktəbinin yetirmələri Siyavuş Bağırov və Kənan Şəfizadə də var.

**Ceyhun MƏMMƏDOV**

# Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2015-ci ilin aprel ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1159 | 69,5 | 70,0 | 100,7 |
| 2. | Culfa rayonu | 1065 | 63,9 | 64,3 | 100,6 |
| 3. | Şahbuz rayonu | 365 | 21,9 | 22,0 | 100,5 |
| 4. | Kəngərli rayonu | 490 | 29,4 | 29,5 | 100,3 |
| 5. | Naxçıvan şəhəri | 2083 | 125,0 | 125,0 | 100,0 |
| 6. | Şərur rayonu | 1836 | 110,2 | 110,2 | 100,0 |
| 7. | Babək rayonu | 1508 | 90,5 | 90,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 290 | 17,4 | 17,4 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 21944 | 1316,6 | 1319,6 | 100,2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **30740** | **1844,4** | **1848,5** | **100,2** |

**Qeyd:** Aprel ayında texniki itki nəzərə alınmaqla daxil olan 30 milyon 740 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 844 min 400 manat olmuş, cəmi 1 milyon 848 min 500 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,2 faizini təşkil edir.

# Qədim Naxçıvan həm də beynəlxalq idman yarışlarının keçirildiyi məkan kimi şöhrət qazanıb



***"Bu gün qətiyyətlə deyə bilərik ki, özünün sürətli inkişafı ilə diqqətləri cəlb edən, beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilən Naxçıvan Muxtar Respublikası həm də beynəlxalq idman yarışlarının keçirildiyi məkan kimi şöhrət qazanıb. Qədim diyar dünyanın şahmat arenasında da özünün layiqli yerini tutub, beynəlxalq şahmat festivallarının keçirildiyi məkan kimi tanınıb".***

Bu sözləri Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov "Şərq qapısı" qəzetinə müsahibəsində dedi.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti bildirib ki, artıq beşinci dəfədir, Naxçıvanda hər ilin may ayında ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilmiş beynəlxalq şahmat festivalı keçirilir. Hər il dünyanın müxtəlif ölkələrindən onlarla tanınmış şahmatçı yarışlarda iştirak etmək üçün Naxçıvana gəlir, azərbaycanlı qonaqpərvərliyinin gözəl Naxçıvan nümunəsini görürlər və bundan şad olurlar. Ona görə də qədim diyara gələn idmançı ikinci dəfə də bura gəlmək arzusunda olur.

"Naxçıvanda bütün idman yarışları, o cümlədən beynəlxalq şahmat festivalları çox yüksək səviyyədə keçirilir. Biz hər dəfə bunun şahidi oluruq. "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalı da çox yüksək səviyyədə təşkil olunub", – deyən Faiq Həsənov qeyd etdi ki, festivalda dünyanın tanınmış zəka ustaları iştirak edirlər. Onlar arasında dünya və Avropa çempionu olmuş şahmatçılar, beynəlxalq qrossmeysterlər, beynəlxalq şahmat və FİDE ustaları vardır.

Onun sözlərinə görə, dünya şahmatsevərləri Naxçıvanda keçirilən festivalı bu dəfə daha böyük maraqla izləyirlər. Bunun səbəbi odur ki, bu dəfə yarışda qadınlar arasında dünya çempionu olan Çin təmsilçisi Hou Yifa da iştirak edir. O, çox güclü şahmatçı kimi bu gün dünyada böyük şöhrət qazanıb. Hou Yifanın festivalda iştirakı dünya şahmatsevərlərinin diqqətini bir daha Naxçıvana yönəldib.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti dedi ki, bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafına xüsusi diqqət göstərilir. Naxçıvanda şahmatın inkişafına göstərilən qayğının nəticəsidir ki, bu gün muxtar respublikanın şahmatçıları arasında 1 beynəlxalq qrossmeyster, 1 beynəlxalq hakim və 1 FİDE ustası var. Ona görə də muxtar respublikada şahmatın inkişafı sahəsində görülən işlər nümunə göstərilməyə layiqdir.

**Rauf ƏLİYEV**

# Şahmat festivalı yüksək səviyyədə təşkil olunub

## *Beynəlxalq festivalın iştirakçıları bu fikirdədir*



***Rüstəm KASIMCANOV – özbəkistanlı qrossmeyster:*** – Beynəlxalq festivalın mənim üçün ən böyük əhəmiyyəti bu festivalın müstəqil Azərbaycanın qurucusu dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilməsi, bu festival vasitəsilə dünyanın nüfuzlu şahmatçıları ilə yarışmaq imkanının yaradılmasıdır. Burada biz şahmatçılar üçün yaxşı şərait yaradılıb və asudə vaxtımız da səmərəli təşkil edilib. Hər yer sakit və təmizdir. İnsan özünü çox rahat hiss edir. Bizə yaradılan şəraitə görə şahmatçı yoldaşlarım adından minnətdarlığımı bildirirəm. Onu da deyim ki, bu qədim diyarda şahmata böyük maraq var. Festivalın keçirilməsi üçün görülmüş hərtərəfli hazırlıq da yüksək səviyyədədir. Bu səbəbdən də dünyanın müxtəlif ölkələrindən buraya öz gücünü sınamağa gəlmiş şahmatçılar razılıq edirlər. Festivala dəvət alanda çox sevindim. Ona görə sevindim ki, əvvəllər burada şahmat festivallarında iştirak etmiş şahmatçılardan Naxçıvan haqda eşitdiklərimi əyani şəkildə görə biləcəkdim.



***Aleksandr XALİFMAN – rusiyalı beynəlxalq qrossmeyster:*** – Özüm haqda məlumat verərək deyim ki, Rusiya yığmasının tərkibində dünya şahmat olimpiadalarının 1992, 2000, 2002-ci illərdə qalibi olmuşam. 1982-ci ildə gənclər arasında SSRİ çempionluğunu qazanmışam. 1996-cı ildə Rusiya çempionluğu mənə nəsib olub. 1990-cı ildə Las-Veqasda keçirilən dünya FİDE çempionatının qalibi olmuşam. Bütün bunları sadalamaqda məqsədim beynəlxalq yarışlar haqda kifayət qədər təcrübəyə malik olduğumu bilməyinizdir. Qeyd etmək istəyirəm ki, Naxçıvanda keçirilən bu festival öz səviyyəsinə görə beynəlxalq səviyyəli digər yarışlardan heç də geri qalmır. Artıq üçüncü dəfədir ki, Naxçıvanda keçirilən beynəlxalq festivalda iştirak edirəm və hər dəfəsində bu şahmat bayramının daha yüksək səviyyədə təşkil olunduğunun şahidi oluram. Əminəm ki, bu festivalda iştirak edən hər bir şahmatçı mükafatçılar sırasına düşüb-düşməməyindən asılı olmayaraq, Naxçıvandan xoş təəssüratlarla ayrılacaq.

**Səbuhi HÜSEYNOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 357